Almaniya Federativ Respublikasının
Səfirliyi
Bakı

Aktuallaşdırılmışdır: Aprel 2024

# Dəqiq iş yeri təklifi haqqında təsdiqin təqdim edilməsi- Yaşamaq haqqında qanunun 18-ci maddəsinin, 2-ci Paraqrafının 4a bəndinə (§ 18 Abs. 2 Nr. 4a AufenthG) uyğun olaraq təlimat

**TƏRCÜMƏDIR. ZƏHMƏT OLMASA, YALNIZ ALMAN DILI TƏLIMATLARINI IMZALAYIN.**

Əcnəbi vətəndaş və onun işəgötürən tərəf məhz viza müraciəti üçün əsas kimi göstərilən əmək fəaliyyətinin həqiqətən də həyata keçirilməsinin təmin edəcəyini təsdiq edir, bu o deməkdir ki, Yaşamaq haqqında Qanunun 18-ci maddəsinin 2-ci Paraqrafının 1-ci bəndinə uyğun olaraq həyata keçirilməsinə yönəlmiş "konkret iş təklifi" həqiqətən də mövcuddur və Yaşamaq haqqında Qanunun 4-cü Bölməsinə uyğun olaraq yaşayış icazəsi almaq üçün sırf qondarma əmək münasibətlərindən söhbət getmir.
Qeyd olunan işi həyata keçirmək niyyəti yoxdursa sadəcə sırf maaş ödəməsi kifayət deyildir.

Yalan bəyannamələr "yanlış məlumat" hesab olunur və Yaşamaq haqqında Qanunun 95-ci maddəsinin 2-ci Paraqrafının 2-ci bəndinə əsasən cəzalandırılır. Əgər bu əməl maddi üstünlük müqabilində həyata keçirilirsə, Yaşamaq haqqında Qanunun 96-cı maddəsinin 1-ci paraqrafının 2-ci bəndinə uyğun olaraq cinayət məsuliyyəti tətbiq olunacaqdır. Eyni zamanda fakt üzrə müvafiq sərtləşdirilmə də həmçinin tətbiq edilir.

Alman Mülki Məcəlləsinin (BGB) 117-ci maddəsinə əsasən saxta və bu səbəbdən də etibarsız olan əmək münasibətlərini gizlədən, həqiqi əmək münasibətlərinə dair konkret sübutlar olduqda, viza idarələri və immiqrasiya orqanları hüquq-mühafizə orqanlarını cəlb etmək imkanına malikdirlər.

İmzalamla təsdiq edirəm ki, yuxarıda göstərilən məlumatları nəzərə almışam və Yaşamaq haqqında Qanunun 18-ci maddəsinin 2-ci Paraqrafının 4a bəndinə uyğun olaraq Yaşamaq haqqında Qanunun 18-ci maddəsinin 2-ci Paraqrafının 1-ci bəndinə istinadən konkret iş təklifinin olduğunu bildirirəm və bu işi qəbul etmək niyyətindəyəm.